Ədəbiyyat qəzeti

10 24 oktyabr 2020-ci il



**A N A R**

*Xalq yazıçısı Anarın bu şeirləri yazdığı vaxtdan bizi 20 illik bir zaman məsafəsi ayırır. Ancaq o 20 ilin əvvəlindəki dərin vətəndaş təəssüfü ilə yanaşı, bu şeirlərdə yenilməz bir inam, xalq, ordu gücünə güvənc duyğusu da sərgilənib. Görkəmli yazıçı uzaqgörənliyinin, təskinliyinin ifadəsidi bu misralar. Bugünümüzə inamla yazılıb.*

## Şuşa niskili

*Kirs dağından meh əsir,*
*Gəl sən vermə mehə sirr.*
*Təbiət əsir düşüb,*
*Külək - dustaq, meh əsir.*

*Satıldı Şuşam,*
*Atıldı Şuşam,*
*Mən də bununla*
*Gərək barışam?*

Gözün tökülsün, yağı,
Sinəmə çəkdin dağı,
Qanlı göz yaşı tökür
İndi İsa bulağı.

Kəssək hərki-hərkini,
Yıxa billik hər kimi.

Keçərək Əsgərandan,
Qalxıb qırx pilləkandən,
Düşmənə qan uddurar
Ər igidlər hər yandan.
O vaxt ürək dolusu
Sevinər Şuşam mənim,
"Mətanətlə, dəyanətlə,
Mərdliklə qoşam mənim"
Atıb dərdi, məlalı,
Söyləyər: Nərim gəldi,
Şükür olsun Allaha,
Qardaşım, ərim gəldi.
Yalan yoxdu sözümdə,
Səbir də var, dözüm də.
Hökmən görüşəcəyik,
Sabah Cıdır düzündə.

*25 iyul 2000*

## Qədim xalq mahnısını dinləyərkən

Oymaq-oymaq, qarış-qarış
Gəzmişəm Azərbaycanı.
Qismət olmadı bircə tək
Görəməddim Zəngilanı.

Ay ana, ana,
Deyirəm yana-yana
Gedəmmədim Zəngilana.
Gedəmmirəm nə Ağdama,
Nə Şuşaya, nə Laçına.

Yağı gəldi yarasatək.
Ürəyimin yarasıtək,
Ürəyimin yarısı tək
Qarabağ boyanıb al qana,
Ay ana, ana.

Taleyimiz demə buymuş,
Düşmən yaman tələ qurmuş,
Obamızı viran qoymuş,
Atlarımız yəhərsizmiş.

Üzəngisiz, kəmərsizmiş,
Maşınımız təkərsizmiş,
Sərhədimiz çəpərsizmiş,
Elimiz Kəlbəcərsizmiş.

Ana, deyim, dilim yansın,
Sənin oğlun hünərsizmiş.

Sözlərimdən küsmə, ana,
Övladından bezmə, ana,
Ümidini üzmə, ana,
Lap az qalıb, görəcəksən,
Sevinicək, güləcəksən,
Bunu özün görəcəksən,
Öz gözünlə görəcəksən -
Atlarımız yəhərlidir,
Üzəngili, kəmərlidir
Əsgərimiz təpərlidir
Ana, məndən arxayın ol,
Sənin oğlun hünərlidir.

Ay ana, ana,
Günləri sana.
Mən gedəcəm Zəngilana.
Gedəcəm axı...
Gedəcəm axır...

*21 may 2001*